# İlham Əliyevin siyasəti sayəsində Azərbaycan Dördüncü Sənaye İnqilabı ölkələri sırasına qoşulub

**Məlumdur ki, iqtisadiyyatın və inkişafın fundamental təməli sənayedir. Başqa sözlə, sənaye hər bir ölkənin iqtisadi inkişafını təmin edən və dayanıqlığını qoruyan başlıca amildir.**



Bu gün dünya iqtisadiyyatında önəmli yer tutan ABŞ, İngiltərə, Fransa, Almaniya, İtaliya, Kanada və Yaponiya məhz sənayesi inkişaf etmiş ölkələrdir. İnkişaf etməkdə olan ölkələr kateqoriyasına daxil olmaq üçün də sənayenin müəyyən qədər inkişafı əsas şərtlərdən biridir.

Azərbaycan müstəqilliyə yenidən qovuşduqdan sonra qarşıya qoyulan əsas hədəf inkişaf etmiş sənaye ölkəsinə çevrilməkdir. Bu, çətin və böyük zəhmət tələb edir. İnkişaf etmiş ölkələr buna nail olmaq üçün uzun və çətin bir yol keçmişlər. Ancaq bu, bizim üçün çox da çətin olmayacaq. Əsas səbəb odur ki, indi dünyada yeni texnika və texnologiyaların transferi çətin deyil. İkincisi, ölkəmiz sənayenin inkişafı istiqamətində müəyyən yol keçmişdir. Belə ki, Ulu Öndər Heydər Əliyevin səyi ilə Azərbaycan sovetlər dönəmində inkişaf etmiş sənayeyə sahib olan müttəfiq respublikalardan biri idi.

Azərbaycan SSRİ dövründə nəinki ittifaqda, hətta dünyada neft sənayesinin inkişafına görə sayılıb-seçilirdi. Sovetlər birliyindəki neft-maşınqayırma sənayesinin 72 faizi Bakıda cəmləşmişdi. Burada fəaliyyət göstərən müəssisələr daxili tələbatı ödəməklə yanaşı, dünya bazarına da neft-maşınqayırma avadanlıqları göndərirdi. Bununla yanaşı, ölkəmizdə sənayenin mürəkkəb sahələri olan alətqayırma, dəzgahqayırma, kimya sənayesi, neft emalı, elektrotexnika, həmçinin yüngül və toxuculuq sənayesi, eləcə də digər sahələr inkişaf etmişdi. İndi sənayeni yenidən bərpa etmək üçün geniş tədbirlərə başlamışıq. Doğrudur, bu sahədə zəngin təcrübəmiz və bacarıqlı kadr potensialımız var. Ancaq əsas məsələ odur ki, yeni dövr qarşıya yeni tələblər qoyur. Bu həm kadr hazırlığına, həm də müəssisələrin istehsal imkanlarına aiddir. Odur ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə dövlət sənayeni inkişaf etdirmək üçün kompleks tədbirlər həyata keçirir. Ciddi islahatlar aparılır, dövlət proqramları qəbul edilir, kadr hazırlamaq üçün gənclərimizin dövlət vəsaiti hesabına xaricdə təhsil alması təmin olunur.

Dövlət başçısının təşəbbüsü ilə "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası qəbul olunub. Həmin sənədin qəbulu və icrası sayəsində mühüm işlər görülüb. Xüsusilə qeyri-neft sənayesinin inkişafı istiqamətində bu inkişaf konsepsiyasının icrası önəmli rol oynayıb. Ölkəmizdə indiyədək bir çox sənaye müəssisəsi tikilib və onlar dünyanın qabaqcıl texnologiyaları ilə təchiz edilib. Bunun sayəsində istehsal olunan bir çox sənaye məhsulu dünya bazarında rəqabət apararaq özünə alıcı tapa bilir.

Prezident İlham Əliyev sahibkarlığın inkişafına xüsusi önəm verir. Sənayenin inkişafı üçün dövlətin özəl sektora dəstək verməsi də bununla bağlıdır. Çünki sənayenin inkişafında özəl sektorun aktiv rol alması məhsul istehsalında da özünü büruzə verir. Statistikaya görə də son bir neçə ildə qeyri-neft sənayesində məhsul istehsalının 80 faizdən çoxu yerli və xarici sahibkarlara məxsusdur.

Dövlət qeyri-neft sektoru, həmçinin qeyri-neft sənayesinin inkişafı istiqamətində siyasətini davam etdirir. Dövlət başçısı tərəfindən "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"in təsdiq edilməsi haqqında sərəncam imzalanıb. 2021-2030-cu illərdə ölkənin iqtisadi inkişafı istiqamətlərini müəyyən edən bu sənədin də əsas məqsədlərindən biri ölkədə sənaye və sahibkarlığın inkişafıdır.

Qeyd etdiyimiz kimi, son bir neçə ildə qeyri-neft sənaye məhsulu istehsalının çoxu sahibkarlara məxsusdur. Bu da onlara göstərilən dövlət qayğısı sayəsində mümkün olub. Belə ki, sahibkarlıq sahəsində yoxlamalar 2023-cü ilədək dayandırılmış, lisenziyalaşdırılan fəaliyyət növlərinin sayı 59-dan 37-yə, icazələrin sayı təqribən 4 dəfə azaldılaraq 86-ya endirilmiş, lisenziyanın verilməsinə görə dövlət rüsumları Bakıda 2, regionlar üzrə 4 dəfə azaldılmışdır. Bütün bunlar son nəticədə qeyri-neft sənayesində məhsul istehsalında özəl sektoru önə çıxarmışdır.

Prezident İlham Əliyev dəfələrlə bəyan etmişdir ki, ölkənin əsas hədəfi Azərbaycanı inkişaf etmiş sənaye ölkələri səviyyəsinə qaldırmaqdır. Bunun üçün ölkəmiz sənayeni inkişaf etdirməli, neftqazdan asılılığı aradan qaldırmalıdır. Hazırda addım-addım bu məqsədə doğru irəliləyirik. Artıq bu sahədə böyük uğurların qazanıldığını da söyləmək mümkündür. Məsələn, Azərbaycanın kosmik ölkə olması böyük uğurumuzdur. Cənubi Qafqaz ölkələrində istehsal olunan sənaye məhsullarının 80 faizinin bizim payımıza düşməsi də sıradan bir fakt deyil.

Prezident İlham Əliyev Azərbaycanı dünyanın inkişaf etmiş sənaye ölkələrindən birinə çevirməklə bağlı gördüyü tədbirlər ardıcıl xarakter daşıyır. Dövlət başçısının 6 yanvar 2021-ci il tarixli fərmanı ilə yaradılmış Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzi də yeni reallıqlar şəraitində ölkəmizin mövqeyini gücləndirmək, qabaqcıl texnoloji imkanlardan maksimum yararlanmaq, bu sahədə beynəlxalq təşkilatlarla əməkdaşlıq və koordinasiya həyata keçirmək məqsədinə xidmət edir. Mərkəz Azərbaycanın Dördüncü Sənaye İnqilabı sahəsində fəaliyyət göstərən beynəlxalq təşkilatlarla əməkdaşlığını və bu sahədə əlaqələndirməni, həmçinin rəqəmsal iqtisadiyyat üzrə çağırışların, təşəbbüslərin, strategiyaların və layihələrin təhlilini və koordinasiyasını həyata keçirir.

Yeri gəlmişkən, qeyd edək ki, 2020-ci il yanvarın 21-də İsveçrənin Davos şəhərində keçirilən Dünya İqtisadi Forumunda Prezident İlham Əliyev və Dünya İqtisadi Forumunun prezidenti Borge Brende arasında Dünya İqtisadi Forumunun Dördüncü Sənaye İnqilabı Mərkəzləri Şəbəkəsinin Azərbaycan Mərkəzinin yaradılması ilə bağlı niyyət protokolu imzalanmışdır. Beləliklə də, Azərbaycanda Dünya İqtisadi Forumunun Dördüncü Sənaye İnqilabı Mərkəzləri Şəbəkəsinin Mərkəzi yaradılmışdır ki, bu da ölkəmizi rəqəmsal və texnoloji mərkəzə çevirmək imkanı verir.

Azərbaycandakı mərkəz MDB məkanında yaradılan ilk belə qurumdur. Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzi 2021-ci il aprelin 1-dən yeni mərkəzin fəaliyyətini də koordinasiya edir. Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzi Dünya İqtisadi Forumunun süni intellekt və maşın öyrənməsi, əşyaların interneti və şəhər transformasiyası, eləcə də rəqəmsal ticarət və iqtisadiyyat platformaları ilə əməkdaşlıq edir. Bu platformalar çərçivəsində iqtisadiyyatın bir çox sahəsində müxtəlif istiqamətlərdə tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur. Eyni zamanda Dördüncü Sənaye İnqilabı Şəbəkəsinin müxtəlif ölkələrdə (Türkiyə, BƏƏ, İsrail, Yaponiya) yaradılmış mərkəzləri ilə sıx əməkdaşlığın qurulması və genişləndirilməsi üçün müəyyən işlər aparılır.

Dördüncü Sənaye İnqilabı fiziki, rəqəmsal və bioloji müstəvilər arasındakı sərhədlərin çulğalaşmasını təsvir etmək üsuludur. Bu, süni intellekt (AI), robototexnika, əşyaların interneti (IoT), 3D çap, gen mühəndisliyi, kvant hesablamaları və digər texnologiyalarda irəliləyişlərin birləşməsidir.

Azərbaycan da qlobal çağırış və tendensiyalara adekvat cavab verən və postpandemiya dövründə yeni inkişaf trendlərinin tətbiqində ön sıralarda olmaqda qərarlıdır. Bu baxımdan ölkəmizdə rəqəmsal iqtisadiyyatın və texnologiyaların inkişafı üçün əlverişli infrastrukturun, o cümlədən Dördüncü Sənaye İnqilabının standartlarına uyğun şəraitin formalaşdırılması istiqamətində fəal iş aparılır.

Prezidentin köməkçisi, Azərbaycan Respublikası Prezident Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin müdiri Natiq Əmirov ölkəmizdə Dördüncü Sənaye İnqilabının milli iqtisadiyyata müsbət təsiri barədə demişdir: "Dördüncü Sənaye İnqilabının əhatə etdiyi bio, fiziki və rəqəmsal texnologiyaların tətbiqinin genişlənməsi, insan kapitalının güclənməsi, idarəetmənin səmərəliliyinin yüksəlməsi iqtisadi artımı şərtləndirən amillərdir. Xüsusən də qeyri neft-qaz sahəsində əsas fondlara yatırılan sərmayənin fiziki və mənəvi aşınmanı qarşılaması, əsas fondların verimliliyini yüksəldir ki, bu da iqtisadi artımın drayverinə çevrilir. Prezident İlham Əliyevin rəhbərliyi altında biznes mühitinin əlverişliliyinin yüksəldilməsi və dövlət təşviqlərinin verilməsi siyasəti ölkəyə sərmayə cəlbini və sərmayə qoyuluşunun səmərəliliyini artırır. Hazırda Azərbaycanda yeddi sənaye parkı - Sumqayıt Kimya, Balaxanı, Mingəçevir, Qaradağ, Pirallahı, Ağdam və Araz Vadisi İqtisadi Zonası sənaye parkları, eləcə də beş sənaye məhəlləsi - Hacıqabul, Masallı, Neftçala, Sabirabad və Şərur sənaye məhəllələri fəaliyyət göstərir. 2021-ci ildə 2,4 milyard manatlıq məhsul istehsalı ilə sənaye zonalarının ölkə sənayesinin qeyri-neft sektorunda xüsusi çəkisi 15,5 faiz, qeyri-neft sənaye məhsullarının ixracında isə xüsusi çəkisi 30,8 faiz (959,3 milyon manatlıq ixrac) təşkil edib. Sənaye zonalarında istehsal olunan məhsullar dünyanın 35-dən çox ölkəsinə ixrac edilir. Prezident İlham Əliyevin sənaye siyasətinin nəticəsində Azərbaycan Avropada sənayenin ÜDM-də xüsusi çəkisinə görə öndə gedən ölkələrdəndir. Dünya Bankının hesablamalarına görə, sənayenin ÜDM-də payı Azərbaycanda 40 faizdən çox olduğu halda dünyada orta göstərici 24,8 faizdir".

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

Azərbaycan.- 2022.- 25 dekabr.- S.11.